**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ELMİN İNKİŞAFI FONDU**

---

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondunun Gənc alim və mütəxəssislərin**
**4-cü birgə "Mənim ilk qrantım"müsabiqəsinin**
**(EİF/GAM-4-BGM-GİN-2017-3(29)) qalibi olmuş**
**layihənin yerinə yetirilməsi üzrə aralıq**
***(rüblük olaraq 2-ci mərhələ)***

## ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı:**Azərbaycan və türkdilli ədəbiyyatda repressiyanın bədii-estetik dərki**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Həsənov Mehman Ağasəlim oğlu**
Qrantın məbləği: **25 000 manat**
Layihənin nömrəsi: **EİF/GAM-4-BGM-GİN-2017-3(29)-19/14/5-M-06**
Müqavilənin imzalanma tarixi: **02 mart 2018-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti**: 12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 aprel 2018-ci il-01 aprel 2019-cu il**
*Layihənin I **mərhələ** üzrə (rüb) məbləği: 9580*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş **elmi işlər** |
| | 1.Qırğızıstanda repressiyanın baş verməsi, gedişatı və bu prosesin ədəbiyyatda əksi – icraçı; layihə rəhbəri, fil.f.d. Mehman Həsənov<br>Cari rüb ərzində ümumtürk ədəbiyyatı tarixində yazılı ənənəsi ən gənc olan, lakin "Manas" dastanı kimi qədim şifahi eposa sahib olan Qırğızıstanda məlum repressiyasının baş verməsi və hadisələrin bədii planda işlənmə dərəcəsi tədqiqata cəlb edilmişdir. Repressiyanın baş verməsinin ümumi resepti bəllidir. Buna baxmayaraq bu proses yerli xalqlarda müxtəlif formada və miqyasda həyata keçirilmişdir. Qırğız yazılı ədəbiyyatı XX əsrin 20-ci illərindən etibarən yarandığı üçün ədiblərin böyük əksəriyyəti elə imperiyanın öz ideologiyasında formalaşmış insanlar olmuşlar. Buna baxmayaraq repressiya ideoloji cəhətdən onlara zidd olan insanları deyil, ilk növbədə intellektualları, ölkənin aparıcı fikir adamlarını hədəfə aldığı üçün Qırğızıstanda da bu prosessin qurbanları olmuşdur. Qırğızıstanda hal-hazırda "Ata-beyit" adlanan memorial kompleksdə dəfn olunan 138 nəfər qırğız ziyalısı, fikir adamı repressiyanın qurbanı olaraq güllələnmişlər. Onların böyük əksəriyyəti dövrünün görkəmli şəxsləri olmuşlar. Tədqiqat işində repressiyanın qurbanı olmuş görkəmli qırğız ədibləri Kasım Tınıstanov, Sıdık Karaçev, Abdurayım Şamatov, Belek Soltonoyev, Ozakun Lepesov, Bayserke Kalpakov kimi qırğız ədiblərinin repressiya olunma səbəbləri öyrənilmişdir. Repressiyadan |

| | |
|---|---|
| | çox sonralar bu proses bədii ədəbiyyyatda öz əksini tapmağa başlamış, bu mövzuya müraciətlər olmuşdur. Qırğız yazılı ədəbiyyatında Tölögön Kasımbek, Kökön Satkanov və Çingiz Aytmatov repressiya mövzusunda bədii əsər yazan ən görkəmli yazarlar olmuşlar. Araşdırmada Tölögön Kasımbekin "Sınan qılınc", "Yenidən doğuluş" romanlarında, Kökön Satkanovun "Mərhumların səsi" əsərində gerçəklik və repressiyanın inikası məsələsi öyrənilmişdir.<br>2.Başqırd və tatar xalqlarının repressiyası və həmin hadisələrin ədəbiyyatda əksi məsələləri – icraçı; Maya Axundova<br>Cari rüb ərzində repressiyanın tatar və başqırd xalqlarının həyatında və ədəbiyyatında təzahürü problemləri tədqiq olunmuşdur. Hər iki xalqın taleyində repressiya qırmızı xətlə keçmiş, dövrünün görkəmli ədiblərinin fiziki olaraq ölümünə, ağır və məşəqqətli sürgün həyatına məhkum etmişdir. Repressiya dalğasının ən çox qurbanı olduğu xalqlardan biri Kazan tatarları olmuşlar. İbrahim Salahov, Əlimcan İbrahimov, Əlim Məhəmmədşin, Əlimcan Neməti, Sultan Qaliyev kimi ədiblər repressiyaya qurban getmişlər. Tədqiqatda adıçəkilən ədiblərin həyat faciəsi, apardıqları milli mücadilə araşdırılmışdır. Repressiyanın bədii ədəbiyyatda əksi baxımından İbrahim Salahovun 1981-ci ildə qələmə aldığı "Kolıma hekayələri" əsəri mühüm əhəmiyyətə malikdir. Araşdırmada təkcə tatarların deyil, ümumilikdə Stalin repressiyasının qurbanları haqqında yazılmış "Kolıma hekayələri" avtobioqrafik-tarixi romanı tədqiq olunmuşdur.<br>3.Repressiya olunmuş Azərbaycan ədibləri – icraçı, Pənah Hacıyev<br>Türk xalqları arasında repressiyanı ən faciəvi şəkildə yaşayan xalq azərbaycanlılar olmuşdur. Bunun əsas səbəbi isə hələ əsası XIX əsrin 50-ci illərində Mirzə Fətəli Axundzadə ilə qoyulan böyük maarifçilik hərəkatı olmuşdur. Nəticədə Azərbaycan xalqı XIX əsrin sonu-XX əsrin əvvəllərində zəngin və məzmunlu ədəbi mühiti ilə seçilmişdir. Təsadüfi deyil ki, Şərqdə ilk demokratik respublika da məhz Azərbaycanda qurulmuşdur. 1926-ci ildə I Türkoloji qurultay məhz Bakıda keçirilmişdir. İmperiya rəhbərliyi bütün bu prosesi diqqətlə izləmiş, Cümhuriyyət qurucuları olan, onu vəsf edən, daha sonra qurultayda iştirak edənlərə qarşı amansız tədbirlər həyata keçirmişdir. Mikayıl Müşfiq, Hüseyn Cavid kimi görkəmli Azərbaycan qələm adamları bu amansız dalğanın qurbanına çevrilmişlər. Cari rübdə Azərbaycanda repressiya dalğası və onun qurbanı olmuş ədiblərimizin taleyi tədqiqata cəlb edilmişdir. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün, faizlə qiymətləndirməli) |
| | *100%* |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | "Azərbaycan və türkdilli ədəbiyyatda repressiyanın bədii-estetik dərki" layihəsi üzrə cari rübdə aşağıdakı elmi nəticələr əldə edilmişdir:<br>- Qırğızıstanda əvvəllər daş karxanası kimi istifadə olunan yerin kütləvi məzarlığa çevrilməsi və bu həqiqətin çox sonralar – 1991-ci ildə hansı şəkildə üzə çıxması qırğız mənbələri əsasında araşdırılmışdır;<br>- Tölögön Kasımbekin "Sınan qılınc", "Yenidən doğuluş" tarixi romanlarında repressiya gerçəyi araşdırılmışdır;<br>- Kökön Satkanovun "Mərhumların səsi" əsərində tarixi gerçəklik və repressiyanın inikası məsələləri öyrənilmişdir;<br>- Tatar və başqırd ədiblərinə qarşı həyata keçirilən repressiya və onun ədəbiyyatda əksi tədqiq olunmuşdur;<br>- Repressiyanın başqırd və tatar xalqlarının həyatına təsiri, görkəmli başqırd və tatar ədiblərinin bu faciənin hansı səbəblərlə qurbanı olması öyrənilmişdir; |

| | |
|---|---|
| | - İbrahim Salahovun repressiyadan bəhs edən "Kolıma hekayələri" avtobioqrfik-tarixi romanı tədqiqata cəlb edilmişdir.<br>- Azərbaycanda repressiya ilə bağlı aparılan tədqiqatlar əsasında ümumiləşdirmələr aparılmış, faciəvi prosesin digər türk xalqları ilə müqayisəli təhlili aparılmışdır. |
| **4** | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | "Azərbaycan və türkdilli ədəbiyyatda repressiyanın bədii-estetik dərki" layihəsinin ikinci rübündə aparılan tədqiqatlar zamanı tarixi-xronoloji və tarixi-müqayisəli metoddan istifadə edilmişdir. |
| **5** | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |
| | Cari rübdə layihə üzrə aşağıdakı məqalələr çapa hazırlanmışdır.<br>1. Mehman Həsənov. Ceyhun Hacıbəylinin bədii və mətbu irsində repressiya mövzusu. IV Beynəlxalq Türk Mədəni Coğrafiyasında Təhsil və Sosial Elmlər Konfransı. Bakı 27-30 iyun, 2018-ci il (Çap olunmuşdur).<br>2. Maya Axundova. "Tatar ədəbiyyatında repressiya mövzusu: İbrahim Salahovun "Kolıma məhkumları" əsəri əsasında". AMEA "Xəbərlər" jurnalına (Humanitar elmlər seriyası). (Çapa qəbul edilmişdir).<br>3. Maya Axundova. Repressiya qurbanı olmuş tatar və başqırd ədibləri. (Çapa hazırlanmışdır)<br>4. Pənah Hacıyev. Repressiya gerçəyi Azərbaycan ədəbi fikrində. "Azərbaycan ədəbiyyatşünaslığı" jurnalı (AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əsərləri). (Çapa təqdim edilmişdir). |
| **6** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | |
| **7** | Layihə üzrə ezamiyyətlər |
| | |
| **8** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | |
| **9** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | |
| **10** | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | Layihə rəhbəri Mehman Həsənov Çingiz Aytmatovun 90 illik yubileyi çərçivəsində Qırğızıstanda elmi ezamiyyətdə olmuş və səfər zamanı "Çingiz Aytmatov və repressiya" mövzusunda məruzə ilə çıxış etmişdir. |
| **11** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | |
| **12** | Yerli həmkarlarla əlaqələr |
| | Car rübdə Azərbaycanda reprsssiya mövzusu ilə bağlı tədqiqat aparan fil.e.d., prof.Bədirxan Əhmədov, fil.e.d., prof. Tahirə Məmməd, türk xalqları istiqməti üzrə fil.f.d.İsmixan Osmanlı, fil.e.d., prof. Nizami Məmmədov və başqaları ilə fikir mübadiləsi aparılmış, çap olunan elmi materiallar toplanmışdır. |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | Layihənin mövzusu üzrə Qırğızıstandan professor Osmanakun İbrahimov, Jumaqul Saadanbekov, |

| | |
|---|---|
| | Layli Ukubayeva, Başqırıdstandan Ayqiz Baymuhəmmədov, Özbəkistandan professor Səadət Məhəmmədova ilə yazışmalar aparılmış, materiallar toplanmışdır |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | |
| **15** | Sərgilərdə iştirak |
| | |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | *(burada doldurmalı)* |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | Layihə rəhbəri fil.f.d Mehman Həsənov Azərbaycan Dövlət Televiziyasında, eləcədə də dövrü mətbuatda çıxışları zamanı Azərbaycanda gənc alimlərə qayğıdan, Elmin İnkişaf Fondunun Qrant layihəsindən bəhs etmişdir. |

**Layihə rəhbərinin imzası____________________Həsənov Mehman Ağasəlim oğlu**

**Tarix** ____________________

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.